# Böyük xilaskarlıq missiyası

**Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi dahi öndər, dünya miqyaslı siyasi xadim Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ümummilli lider hələ sağlığında canlı əfsanəyə çevrilmiş, gördüyü möhtəşəm işlərlə Vətənə və xalqa sədaqət nümunəsi olmuşdur. 1993-cü il iyunun 15-də ulu öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizi başının üstünü aldığı böyük bəlalardan və təhlükədən xilas etdi, Azərbaycanı bir dövlət kimi parçalanıb məhv olmaqdan qurtardı. Ona görə də həmin o gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub.**

Ulu öndər Heydər Əliyev Azərbayna rəhbərliyinin bütün mərhələlərin- öz xalqına sonsuz məhəbbət və daqət hissi ilə, qurub-yaratmaq nalı ilə yaşamışdır. Heydər Əliyev nından çox sevdiyi xalqına möhkəm vlətçilik təsisatlarına malik, demoktik, dünyəvi, bəşəri dəyərlərə sadiq, üasir, müstəqil Azərbaycanı bəxş et- Bu illərdə respublikamızın əldə etyi bütün uğurlar Heydər Əliyev düsının bəhrəsidir.

1993-cü ilin iyununda ölkəmizdə rəyan edən hadisələr Azərbaycan vlətçiliyini və müstəqilliyini böyük hlükə altında qoymuşdu. Siyasi və isadi böhranla üzləşmiş ölkəmiz öz rixinin çox çətin və ağır bir dövrünü şayırdı. Azərbaycanda özbaşınalıq, kimiyyətsizlik baş alıb gedirdi, resblikamız vətəndaş qarşıdurması ilə bəüz idi. Vətənimiz parçalanıb əhv olmaq təhlükəsi ilə üz-üzə qalşdı. Xalq bilirdi ki, onu belə bir acıcaqlı, çıxılmaz vəziyyətdən yalnız yalnız özünün bənzərsiz və böyük lu Heydər Əliyev şəxsiyyəti, dühası xara bilər. Ona görə də xalq ayağa lxdı, Heydər Əliyevi təkidlə Bakı—ölkə rəhbərliyinə dəvət etdi. Xalnın ağır, çətin günlərində həmişə a dayaq olan ümummilli lider Naxçından respublika rəhbərliyinə gəldi 1993-cü il iyunun 15-də Ali Sovetin dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək". Ümummilli lider Heydər Əliyevin siyasi uzaqgörənliyinin məntiqi nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də "Əsrin Müqaviləsi" imzalandı bu kontraktın imzalanması ilə bütün strateji əhəmiyyətli sahələr inkişaf etdi, ölkə iqtisadiyyatının sürətli tərəqqisini təmin etdi. Bununla da Azərbaycan regionda və dünyada çox mühüm neft-qaz mərkəzindən birinə çevrildi. 1999-cu ildə ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tibilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inkişafına dair bağlanmış saziş Azərbaycanın bugünkü iqtisadi inkişafı baxımından müstəsna əhəmiyyətə malik olmuşdur.

Heydər Əliyev dövlət quruculuğu sahəsində də müstəsna xidmətlər göstərmişdir. O, ardıcıl olaraq demokratik və hüquqi islahatlar həyata keçirmişdir. Ulu öndərin rəhbərliyi altına hazırlanan, dünyada mövcud olan ən mütərəqqi hüquq normalarını özündə əks etdirən müstəqil Azərbaycanın ilk Milli Konstitusiyasının 1995-ci ilin 12 noyabrında ümumxalq referendumu ilə qəbul olunması respublikanın inkişaf istiqamətlərini müəyyənləşdirmiş, iqtisadi, siyasi, hüquqi islahatların bazisinə çevrilmişdir. Əsas Qanunda xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəviliyi, idarəçiliyi hakimiyyət bölgüsü əsasında təşkil olunmasının təməl prinsipləri təsbit olunmuş, insan hüquq və azadlıqlarının təmin edilməsi ali məqsəd kimi ön plana çəkilmişdir. Yeni Konstitusiyanın qəxində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir".

Böyük öndərin ölkəyə rəhbərliyi dövründə iqtisadiyyatın bütün sahələri sürətli müasir inkişaf yoluna qədəm qoymuşdur. Yüksək inkişaf tempinə malik olan sahələrdən biri dəmir yolu nəqliyyatı olmuşdur. Azərbaycanın iqtisadi inkişafında müstəsna rol oynayan dəmir yolu sahəsində islahatlar aparılmış, bu sahənin müasir dünya tələblərinə cavab verməsi üçün məqsədyönlü işlər həyata keçirilmişdir. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat islahatları bu gün ölkə başçısı tərəfindən müasir dövrün tələbinə uyğun davam etdirilir, beynəlxalq əhəmiyyətli layihələr uğurla reallaşdırılır. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dəmir yolu sahəsində böyük tranzit ölkəsinə çevrilir, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri uğurla reallaşdırılır. Son bir ildə bu sektorda ölkə Prezidentinin tapşırığına uyğun olaraq genişmiqyaslı işlər aparılır, nəzərdə tutulan bütün vəzifələr vaxtında və keyfiyyətlə həyata keçirilir.

Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfində qoyulmuş iqtisadi inkişaf strategiyası ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla aparılır, xalqımıza böyük uğur və zəfərlər qazandırır.

**Daxil ŞİXƏLİYEV,**
**"ADY" QSC Yükdaşımalar Deportamentinin "Vaqon" Şöbəsinin rəis müavini.**